# Simurq

*Ülviyyə Məmmədova*

*Bakılı İnna Kostina dünya şöhrətli batika ustalarından biridir. O, Azərbaycanda və onun hüdudlarından kənarda təşkil edilmiş 250-dən çox sərginin iştirakçısı, Norveç səfirliyinin Azərbaycanda reallaşdırdığı ən məşhur mədəniyyət layihələrdən birinin direktor-koordinatoru olmuşdur. 1996-cı ildən etibarən Şəki şəhərində bədii simpoziumlar təşkil edir. Bu simpoziumlar öz həyatını sənətə həsr etmiş insanları bir araya toplayır, yaradıcı ideyaları stimullaşdırır, bir çox rəssamların beynəlxalq arenaya çıxışını şərtləndirir.*

*Hal-hazırda İnna Kostina Rəssamlar İttifaqının və Kinematoqrafçılar İttifaqının üzvü, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimidir. İstedadlı rəssamın əsərləri 1994-cü ildən etibarən Türkiyə, Qazaxstan, Gürcüstan, İtaliya, Almaniya, Norveç kimi ölkələrdə sərgilənmişdir.*





Foto: Rüfət Abbasov

İnnanın hələ uşaq yaşlarında rəssamlığa olan böyük həvəsi onu 1980-ci ildə Moskva Rəssamlıq Məktəbinə gətirib çıxarır. Həmin məktəbi 1984-cü ildə fərqlənmə diplomu ilə bitirən İnna təhsilini 1984-1989-cu illərdə S.A.Gerasimov adına Moskva Dövlət Kinematoqrafiya İnstitutunun kino və televiziya rəssamlığı fakültəsində davam etdirir. Bu uğurlarla kifayətlənməyən rəssam özünü yeni sahələrdə sınamağa başlayır. İlk belə sınaqlarından biri - milli araqçınlarımız oldu.

"Dostum, xalq yaradıcılığının böyük pərəstişkarlarından biri olan Elmar Haşımov məndən araqçınlar hazırlamağımı xahiş etdi. Bu mövzuya o qədər aludə oldum ki, böyük bir araqçın kolleksiyasının necə yarandığını bilmədim. Bu kolleksiyaya müxtəlif rəngli parçalardan hazırlanmış, gözəl ornamentlərlə bəzədilmiş araqçınlar daxildir. Məlum oldu ki, qədim araqçınlar müasir dəbin tamhüquqlu atributlarından birinə çevrilə bilər. Bu mənim üçün taleyin töhfəsi idi. Qeyd edim ki, ilk araqçınlarımı 1989-cu ildə - Dövlət Kinematoqrafiya İnstitutunda ixtisas üzrə diplom işinin müdafiəsi zamanı hazırlamışdım. Həmin vaxt mən "Arşın mal alan" və "Məşədi İbad" kinofilmlərinin kostyumlarının eskizləri üzərində işləyirdim.

Adətən öz əl işlərimi mən qızılı lentlərlə, biserlərlə bəzəyirəm. Onları əsl sənət əsərinə çevirmək istəyirəm. Kino və teatr aktyorları bu araqçınları tamaşalar, çəkilişlər zamanı istifadə edirlər. Dostlarımın bir çoxu isə mənim arqçınlarımdan gündəlik aksessuar kimi yararlanırlar.

Hal-hazırda əl işlərim Milli İncəsənət Muzeyində, Müasir İncəsənət Muzeyində, Rusiya Federasiyası Tomsk vilayəti İncəsənət Muzeyində, "Old Gallery"də, "Kvarsala" da, həmçinin Azərbaycanın və 25-dən çox dünya ölkəsinin şəxsi kolleksiyalarında saxlanılır.

Azərbaycanda və onun hüdudlarından kənarda keçirilən sərgilərin təşkilatçıları ilə böyük məmnuniyyətlə çalışıram. Bu mənə həm öz əl işlərimi nümayiş etdirməyə, həm də dostlarımın uğurlarına sevinməyə, təcrübələrini bölüşməyə imkan yaradır".

"Siz rəssamsınız, yaxud batika ustası?" sualını İnna Kostina belə cavablandırır:

"Bu sahənin mütəxəssisləri və ekspertləri mənə tez-tez "sən batikaya rəssam kimi yanaşırsan" deyirlər. Böyük kətan üzərində işləməyi çox sevirəm. Bu mənə öz hiss və duyğularımı, emosiyalarımı tam şəkildə ifadə etmək imkanı yaradır. Şərq motivlərini çox sevirəm, bu mövzuya daha çox üstünlük verirəm. Şərq mövzulu əsərlərimi mən "Arabesklər", qarşılıqlı insan münasibətlərini ifadə edən əsərlərimi isə "Öpüş" kolleksiyasında təqdim etmişəm. Bu kolleksiyalar İtaliya, Almaniya, Türkiyə, Avstriya, Fransa, Norveç, İspaniya kimi ölkələrdə böyük populyarlıq qazanmışdır".











İ.Kostinanın əsərlərinin rəng hərarəti və təkrarsız harmoniyası hər kəsi valeh edir. İlk baxışdan adama elə gəlir ki, bu işlər isti və soyuq batika texnikalarının vəhdəti əsasında yerinə yetirilib. Rənglərin və nazik xətlərin bolluğu çətin və mürəkkəb yaradıcılıq prosesinin məhsuludur. Zənnimizcə, bu qədər ağır zəhmət tələb edən işlərdən sonra yenidən dönə-dönə batikaya müraciət etmək əsl qəhrəmanlıqdır. Bu mənada İnna Kostina - özünün dəfələrlə müraciət etdiyi Simurq obrazını xatırladan cəsarətli rəssamdır.

Qədim zamanlarda Azərbaycanda ipəklə işləyən rəssamlar hesab edirdilər ki, ipək də insan kimidir, onun da ürəyi var. Və ipək öz ürəyini ona sevgi, səbr və hörmətlə yanaşanlara açа bilər. Qadın geyimlərinin istehsalı ilə məşğul olan ailələrdə bu sənət sahəsi ənənə xarakteri almış, nəsildən-nəslə ötürülmüşdür. Hal-hazırda bu sənəti gənc nəslə öyrədən İnna xanım yetirmələrinin gələcəyinə inanır:

"1995-ci ildən "Yeddi əlvan kəpənək" studiyasına rəhbərlik edirəm. Studiya Rəssamlar İttifaqının nəzdində fəaliyyət göstərir. Buraya çoxlu istedadlı uşaqlar cəlb olunmuşlar. Studiyanın Şirin Muradova,

Bəhram Yaradanquliyev, Timur Məmmədov, Leyla Mehdiyeva və s. kimi məzunlarının işləri bütün dünyada məşhurdur. Bu sənətdə tək olmamağım məni sevindirir.

Ölkəmizdə əsl sənəti dəyərləndirən, anlayan və öz işini mükəmməl bilən peşəkarlara dəstək verən insanlar çoxdur. Öz etnoqrafik zənginliyi, mədəni-tarixi abidələrinin bolluğu ilə seçilən İsmayıllı rayonunun Basqal kəndində Rəna xanım İbrahimbəyova və Cəmil Tarıverdiytev itirilmiş milli dəyərlərin bərpası mərkəzi yaratmışlar. Burada biz Azərbaycan kəlağayılarının yeni bədii kompozisiyalarını yaratmışıq".

Bu, istedadlı rəssam İnna Kostinanın portretindən bəzi ştrixlər idi. Sənətkar haqqında tam təəssürat yaratmaq üçün onun əl işləri ilə tanış olmaq lazımdır. Yalnız bu yolla Azərbaycan incəsənətinin bu parlaq təmsilçisini daha yaxından tanımaq mümkündür.





